DOI:10.30546/gdu.2023.64-68

***TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR***

**UOT:94(479.24).**

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ GƏNCƏDƏ MAARİFÇİLİK VƏ XEYRİYYƏÇİLİYİN İNKİŞAFINDA QADINLARIN ROLU

***t.ü.f.d., dosent Pərvin Kərimzadə***
***Gəncə Dövlət Universiteti***
***parvinkerimzade@mail.ru***

**Xülasə:** *XX əsrin əvvəllərində Azərbaycan qadınları arasında maarifçilik və xeyriyyəçilik hərəkatı genişlənir. Həmin dövrdə milli hərəkatın mərkəzinə çevrilən Gəncə şəhərinin qadınları da ictimai həyatda fəal rol oynamağa başlayırlar. Zəmanənin əksər mütərəqqi düşünən qadınları, o cümlədən Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin həyat yoldaşları gənc nəslin dünyagörüşünün və vətənpərvər hisslərinin formalaşmasına, maarifçilik və xeyriyyəçiliyin inkişafına müəyyən təsir göstərmişdilər. Təqdim olunan məqalədə XX əsrin əvvəllərində Gəncədə maarifçilik və xeyriyyəçiliyin inkişafında qadınların rolu geniş təhlil edilir.*

**Açar sözlər:** Gəncə, maarifçilik, xeyriyyəçilik, qadın hərəkatı, xeyriyyə cəmiyyətləri
**Ключевые слова:** Гянджа, просвещение, благотворительность, женское движение, благотворительные общества
**Keywords:** Gandja, education, charity, women's movement, charitable societies

XX əsrin əvvəllərində Azərbaycan qadınları arasında maarifçilik və xeyriyyəçilik hərəkatı fəallaşmışdı. H.Z. Tağıyevin 1901-ci ildə Bakıda açdığı ilk müsəlman qızlar məktəbi bütövlükdə Qafqaz müsəlmanları arasında qadın təhsilinin başlanğıcını qoydu. "Nəşri-Maarif", "Nicat", "Səadət" və sair maarifçi-xeyriyyəçi cəmiyyətlərinin açılması ilə qadın təhsili digər bölgələrdə, o cümlədən Gəncədə də yayılmağa başladı. Məsələn, Müsəlman xeyriyyə cəmiyyətinin fəaliyyətində Xədicə xanım Ağayeva və Xuraman xanım Abdıyeva fəal iştirak edirdilər. Gəncədə Nəsib bəy Yusifbəylinin həyat yoldaşı, İsmayıl bəy Qaspıralının qızı Şəfiqə xanım Yusifbəyli qadın dərnəyi təsis etmişdi. Bu təşkilata Gəncənin əsilzadə ailələrindən olan ziyalı azərbaycanlı qızları və qadınları – C. Rəfibəyova, R. Xasməmmədova, S. Ziyadxanova, Ş. Pişnamazzadə, X. Rəfiyeva, Ş. Xoyskaya, D. Xasməmmədova və başqaları daxil idilər. Şəfiqə xanım Yusifbəyli həmçinin maarifpərvər xadimlərlə birlikdə 1908-ci ilin fevralın əvvəllərində Gəncə müsəlman qadınları arasında savad yayan cəmiyyətin nizamnaməsinin layihəsini hazırlamışdı. (1,səh.69-70)

Birinci dünya müharibəsi illərində Xədicə xanım Ağayevanın başçılıq etdiyi cəmiyyətə 20 qadın daxil idi. Xədicə xanımla yanaşı, Həcər xanım Qazızadə, Şükufə xanım Pişnamazzadə (xəzinədar), Valiyə xanım Xoyskaya (katibə), Cəvahir xanım Rəfibəyova, Züleyxa xanım Ağayeva, Nazlı xanım Vəzirova, Aliyə xanım Rəfibəyova, Həbibə xanım Məmmədova, Şölə və Püstə xanım Verdiyevalar və başqaları Gəncədəki xeyriyyə cəmiyyətinin fəal üzvləri idilər. Onlar nəinki ianə toplayıb maddi yardım göstərməklə məşğul olur, həm də tərbiyəvi işlərə özləri fəal surətdə qatılırdılar. (2) Onlar qadın xeyriyyə cəmiyyətinin binasının tikintisinə başlamağı planlaşdırırdılar.

Gəncəli qadınların sosial problemlərə, o cümlədən müharibənin bütün kəsəri ilə ortaya çıxardığı valideynlərini itirən uşaqların qayğı məsələsinə fəal vətəndaş mövqeyi "Açıq söz" qəzeti səhifələrində Əhməd Cavadın imzası ilə getmiş yazıda belə təsvir olunurdu: "Gəncə xanımları bir az gec də olsa işə girişdilər. Millətin yetim balalarını sevindirmək üçün mərhəmət əllərini uzatdılar. Bu işdə xanımların vəzifəsini daha aydın görən Xədicə xanım

DOI:10.30546/gdu.2023.64-68

Ağayeva xanımlardan ibarət bir şura çağırıb darüləytam (uşaq evi – P.K.) məsələsini onlara açdı. Türk xanımları yürəkdən işə girişəcəklərini bəyan etdilər. Sayı iyirmidən artıq olan bu xanımlar qərar verdilər ki, burada mövcud olan xanımlardan hər gün ikisi məzkur (sözügedən – P.K.) darüləytamda sıra ilə nəzarət edəcək. Sabahdan axşama qədər uzanacaq bu baxıcılığın şəraiti tərbiyə cəhətindən çox gözəldir... Xanımlar hümmət etməsələr bizim darüləytamdan heç bir şey çıxmayacaqdır". (3) Gəncəli qadınlar başda X. Ağayeva olmaqla şəhərdəki ""Zarya" teatrının sahibi Tsarenko ilə uzlaşaraq, bir gün xanımlara məxsus tamaşa göstərilməsini qərara aldılar. Həmin gün əldə ediləcək gəlirin xanımlara çatan 60%-i kimsəsizlərə və qaçqınlara yardım üçün nəzərdə tutulmuşdu. 1916-cı ilin sonlarında keçirilmiş və "sinematoqraf" günü adını almış belə bir tədbirdən 688 rubl pul yığılmışdı ki, həmin məbləğdən ərzaq alınaraq, habelə nağd pul olaraq qaçqınlara yardım göstərilmişdi. Həmçinin kimsəsiz uşaqlara geyim alınmışdı. 1917-ci ilin yanvarın 7-də keçirilən növbəti "sinematoqraf" günündə 400 manata qədər xalis mənfəət qalmışdı. Xanımlar həmin məbləğin yarısını "darüləytamdakı yetimlərin ehtiyacına, yarısını isə müharibə meydanında bir loğma əkmək (çörək – P.K.) deyə fəryad edən küçük balalarına və çılpaq qalmış bacılarına" göndərməyi planlaşdırırdılar. (4)

Bundan əlavə, 1917-ci ilin yanvarın 2-də Gəncə müsəlman dram cəmiyyətinin təşəbbüsü ilə Anadolu hərbzədə (hərbdən əziyyət çəkən – P.K.) müsəlmanların nəfinə olaraq gözəl bir şərq müsamirəsi tərtib olundu. Müsamirənin türk bölümünə Xədicə xanım Ağayeva başçılıq edirdi. Həmin müsamirədən geniş reportaj hazırlayan Gəncə qadın gimnaziyasının türk dili müəllimi, tanınmış gəncəli ziyalı İdris Axundzadə bununla bağlı yazırdı: "Müsamirə bitdikdən sonra Gəncə dram cəmiyyəti heyəti namından dram cəmiyyəti sədri Ələsgər bəy Xasməmmədov cənabları müsamirəmizə bu, o vasitə ilə yardımı toxunan gürcü xanımlarına, rus xanımlarına tənəffüs üçün şəhərimizə ovdət edən fəal türk tələbələrinə və Xədicə xanım Ağazadə cənablarına cəmiyyətin ən səmimi izhar-təşəkkürlərini təqdim etdi. Xədicə xanım əfəndi qəhvəxana salonunu həvəskarların və dram cəmiyyəti üzvlərinin gurultulu alqışları ilə tərk etdi. Anadolu hərbzədələrinin xeyrinə tərtib olunmuş müsamirəyə Gəncə quberniyası zadəganlarına və zənginlərinə və Bakı milyonçularına cəmiyyət tərəfindən paçotnı biletlər göndərilmiş. Müsamirə gecəsi saat altıdan səkkizə qədər bütün biletlər satılıb bitmişdi. Bilet satışından və "qəhvəxana bazarından" min beş yüz rubla toplandı. Paçotnı bilet göndərilən möhtərəm zatların ianələri hər gün posta ilə cəmiyyətimiz sədri Ələsgər bəy Xasməmmədov cənablarının adına gəlməkdədir". (5)

Qadın xeyriyyə cəmiyyətlərinin fəaliyyəti ilə tanışlıq məqsədlərinin nümayişkaranə qeyri-siyasiliyi şəraitində onların bəlli çərçivədə və üstüörtülü formada siyasi xarakter daşıdığını söyləməyə imkan verir. Məhz obyektiv ziddiyyət, yəni artmaqda olan milli özünüdərk, etnik və dini identiklik axtarışları durumunda milli məsələnin prinsipial olaraq çözülməməyi bu qurumları siyasi struktura çevirirdi. Belə bir məqam da nəzərə alınmalıdır ki, gəncəli ictimai fəal qadınlar Rusiyanın savaşdığı bir ölkənin – Osmanlı dövlətinin qaçqın düşmüş təbəələrinə geniş yardım kampaniyası açmışdılar. Bununla onlar bir tərəfdən böyük riskə girməklə, faktiki siyasi əməldə təqdim edirdilər, digər tərəfdən isə milli-dini həmrəyliklərini ortaya qoyurdular. Ümumiyyətlə, qadınlar Azərbaycan xalqının milli hərəkatında özünəməxsus yer tuta bilmişdilər. Milli hərəkatın liderləri və ilk Azərbaycan demokratik cümhuriyyətinin yaradıcıları da bunu qeyd edirdilər. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Adil xan Ziyadxanov 1919-cu ilun mayında AXC-nin yaranmasının birinci ildönümü münasibətilə «Azərbaycan» qəzetində silsilə məqalələr dərc etdirmişdi. Belə məqalələrdən birində o, Azərbaycan xalqının milli hərəkatında qadınların rolunu və əhəmiyyətini xüsusilə vurğulamışdı. O, bu rolu çox obrazlı şəkildə səciyyələndirmişdi: "Biz istiqlal bayrağını qaldırdığımız məqamdan etibarən qadınlar

DOI:10.30546/gdu.2023.64-68

kişilərlə bərabər bayrağımızın dəstəyini möhkəm tuturdular". O qeyd edirdi ki, əgər kişini millətin sağ əli hesab etmək olarsa, bu zaman qadınlar sağ əldən heç də az dəyərli olmayan sol əldir. "Əgər biz göynəyən və ağrıyan sol əlin qeydinə qalmasaq, onda can atdığımız tərəqqiyə nail ola bilməyəcəyik. Mən qadınların kişilərlə tam azad bərabər hüquqlarının tərəfdarıyam", - deyə A. Ziyadxanov sözünü bitirirdi. (1, səh.192-193)

Azərbaycanın görkəmli siyasi, ictimai və dövlət xadimi, əslən Gəncədən olan Nəsib bəy Yusifbəylinin (1881-1920) ideya və siyasi cəhətdən təşəkkülündə İ. Qaspıralının ailəsi və onun qızı – N. Yusifbəylinin həyat yoldaşı Şəfiqə xanım Qaspıralı mühüm rol oynamışdı. N. Yusifbəylinin siyasi görüşlərinin formalaşması hələ Odessada, universitet mühitində başlamışdı; orada azərbaycanlı tələbə cəmiyyəti aktiv ictimai-siyasi fəaliyyət ilə məşğul olurdu. N. Yusifbəyli 1907-ci ildə IV kursda universiteti tərk edəndən sonra Baxçasaraya gedərək, Krım tatarlarının «Tərcüman» qəzeti ilə əməkdaşlığa başlamışdı. Bu qəzet görkəmli ictimai-siyasi xadim, türkçülüyün ideoloqlarından biri İsmayıl bəy Qaspıralı tərəfindən redaktə olunurdu. Nəsib bəy Yusifbəyli burada İ. Qaspıralının qızı, atasının baxışlarını bölüşən, ona işində kömək edən və Rusiyada ən təhsilli müsəlman qızlarından biri olan Şəfiqə xanımla tanış olur və ona aşiq olur. İ. Qaspıralının təbliğ etdiyi türkçülük ideyaları, onun ətrafındakı mühit, həmçinin onun ailəsi Nəsib bəyin siyasi baxışlarının formalaşmasına güclü təsir göstərir. Şəfiqə Qaspıralının özü isə hər zaman Azərbaycanın, sonralar da Krım tatarlarının ictimai-siyasi həyatında fəal surətdə iştirak etmiş və Krımda müsəlman qadın hərəkatının lideri olmuşdu. 6(səh.198-199)

1909-cu ildə N. Yusifbəyli və Ş. Qaspıralının boşanmalarına baxmayaraq, bir-birilərinə qarşılıqlı ehtiramı qoruyub saxlamış və sıx dostluq münasibətlərini davam etdirmişdilər. 1914-cü ildə İ. Qaspıralı ağır xəstə olanda Nəsb bəy onun yanında olmuş, hətta İsmayıl bəyin vəsiyyətini öz müəlliminin oğlu ilə birlikdə dinləmişdi. (7, səh.120) 1919-cu ildə Krımda vəziyyət gərginləşəndə Ş. Qaspıralı Azərbaycan hökuməti başçısı N. Yusifbəylinin məsləhətinə uyğun uşaqları ilə birlikdə Bakıya köçərək, müəllimliklə məşğul olmağa başlamışdı. 1920-ci ildə XI Qızıl Ordu Azərbaycanı işğal edərkən Ş. Qaspıralı övladları ilə bərabər Türkiyəyə getmişdi. (1, səh.200) N. Yusifbəylinin ikinci həyat yoldaşı – Eynülhəyat (qızlıq soyadı Baişeva), da siyasi cəhətdən fəal olmuşdu. Eynülhəyatın siyasi baxışları 1 dekabr 1917-ci il tarixli "Bakı Müsəlman İctimai Təşkilatları Komitəsinin xəbərlərində" dərc olunmuş "Bizim gələcəyimiz və hazırkı məqamın vəzifələri" məqaləsində qabarıq izlənilir. Bu, gündəlik qəzet səhifəsinin dərc olunmağa başladığı müddət ərzində, yəni 1917-ci il aprelin 25-dən etibarən qadın qələmindən çıxmış ilk məqalə idi. Məqalədə xalqların öz müqəddəratlarını təyin etmə prinsipinin mədəni komponentləri və "türk-müsəlman xalqlarına tətbiq edilərkən bu anlayışın məzmununun" işarələnməsi problemi nəzərdən keçirilir. (8, ) Eynülhəyat xanım milli özünü təyində ziyalıların roluna dair mülahizələri ilə bölüşürdü. O, hesab edirdi ki, siyasi işdə yalnız müxtəlif partiya proqramlarını işləyib hazırlamaqla məşğul olmaq kifayət deyil. Məqalədə belə bir məqam xüsusi vurğulanırdı ki, "ziyalılar kütləni öz arxasınca aparmaq kimi birbaşa vəzifələrini yerinə yetirməyin ziyanına partiya işinə həddən artıq aludə olurlar…". E. Yusifbəylinin Azərbaycan ziyalılarına və siyasi xadimlərinə bu məsləhətləri onun yüksək siyasi səviyyəsindən və öz dövrünün mühüm vəzifələrini dərk etməsindən xəbər verir.

Zəmanənin əksər mütərəqqi düşünən qadınları Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin həyat yoldaşları və əqidədaşları olmaqla, onların dünyagörüşünün və vətənpərvər hisslərinin formalaşmasına müəyyən təsir göstərmişdilər.

Birinci dünya müharibəsi ərəfəsində və illərində Gəncədə ictimai-mədəni fəallıq və xeyriyyəçilik barədə mülahizələrimizi tanınmış rus tarixçisi V.O. Klyuçevskinin aşağıdakı sözləri ilə yekunlaşdırmaq istərdik: "Sosioloji araşdırmanın heç bir metodu ilə bu gündəlik,

DOI:10.30546/gdu.2023.64-68

susqun, minəlli sədəqənin insan münasibətlərinə hansı miqdarda xeyirxahlıq “süzdürdüyünü”, nə dərəcədə insanları insan sevməyə öyrətdiyini və yoxsulu varlılara nifrət etdirməkdən tərgitdiyini aydınlaşdırmaq mümkün deyil”.(9,səh.231)Həqiqətən də, Azərbaycan burjuaziyasının xeyriyyəçiliyi və mesenatlığı bir tərəfdən xalqı maariflənməyə doğru aparırdısa, digər tərəfdən ümumbəşəri səciyyə daşıyırdı; o mesenatların bütün nəcib xislətini açıb göstərir, bununla da böyüməkdə olan nəslin humanizm ruhunda tərbiyəsinə şərait yaradırdı. Belə bir məqam da göz önündə tutulmalıdır ki, bu yardım sadəcə maddi deyil, həmçinin mənəvi xarakter daşıyırdı.

### *Ədəbiyyat*


1. Алиева Л. Женщины в общественно-политической жизни Азербайджана (1900-1920 гг.). Баку: МВМ, 2013, с.69-70 (336 с.)
2. Cavad. Gəncədən. «Açıq söz»,1916, 29 dekabr, №363
3. Cavad. Gəncədən. «Açıq söz»,1916, 29 dekabr, №363
4. Gəncəli. Gəncədən. «Açıq söz»,1917, 19 yanvar, №381
5. İdris. Gəncədən. «Açıq söz»,1917, 10 yanvar, №373
6. İbrahimova M. Fədakar türk qadını – Şəfiqə xanım Qaspralı //”Respublika” qəzeti, 2000, 23 yanvar, №16; Алиева Л. Женщины в общественно-политической жизни Азербайджана, с.198-199.
7. Kəngərli A. İsmayıl bəy Qasprinski. Bakı: Nurlan, 2004,s.120
8. Известия Комитета Бакинских мусульманских общественных организаций, 1917, 1 декабря.
9. Ключевский В.О. Сочинения в 9 томах, т.9, Москва, 1990, с. 231


## РОЛЬ ЖЕНЩИН В РАЗВИТИИ ПРОСВЕЩЕНИЯ И БЛАГОТВОРИТЕЛЬНОСТИ В ГЯНДЖЕ В НАЧАЛЕ 20 ВЕКА

***Парвин Керимзаде***

***Резюме***

В начале 20 века развернулось просветительское и благотворительное движение среди азербайджанских женщин. В это время женщины Гянджи, ставшей центром национального движения, стали играть активную роль в общественной жизни. Большинство прогрессивно мыслящих женщин того времени, в том числе супруги видных общественно-политических деятелей Азербайджана, оказали определенное влияние на формирование мировоззренческих и патриотических чувств молодого поколения, развитие просветительства и человеколюбия. В представленной статье широко анализируется роль женщин в развитии просвещения и благотворительности в Гяндже в начале 20 века.

## THE ROLE OF WOMEN IN THE DEVELOPMENT OF EDUCATION AND CHARITY IN GANJA AT THE BEGINNING OF THE 20TH CENTURY

***Parvin Karimzada***

***Summary***

At the beginning of the 20th century, an educational and charitable movement developed among Azerbaijani women. At this time, the women of Ganja began to play an active role in public life. Most of the progressive-minded women of that time, including the spouses of prominent public and political figures of Azerbaijan, had a certain influence on the

DOI:10.30546/gdu.2023.64-68

formation of the worldview and patriotic feelings of the younger generation, the development of enlightenment and philanthropy. The presented article analyzes the role of women in the development of education and charity in Ganja at the beginning of the 20th century.

***Rəyçi: dos.E.Musayev***
***Ümumi tarix kafedrasının 24 may 2023-cü il tarixli iclasın 09 saylı protokolu***
***Daxil olma tarixi 24 iyul 2023-cü il***